Səs.- 2019.- 15 may.- S.13

www.sesqazeti.az

facebook Ses Media Holding

# Daşkəsəndə kitab bayramı keçirilib

*Bu bayram Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunub*

Dünən Daşkəsən rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi rayon Mədəniyyət Mərkəzinin qarşısında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş XI Ənənəvi Kitab Bayramını keçirilib.



Əvvəlcə tədbir iştirakçıları kitablardan və uşaqların əl işlərindən ibarət sərgilərə baxıblar. Tədbiri giriş sözü ilə açan rayon



icra hakimiyyəti başçısı Əhəd Abıyev, ölkəmizin hər bir bölgəsində olduğu kimi, Daşkəsən rayonunda da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş ənənəvi kitab bayramının qeyd edildiyini bildirib: “Ulu Öndərimiz həmişə cəmiyyətimizdə ziyalılığa, bunun zəruri şərti olan kütləvi nəşrlərin həyata keçirilməsinə, bütövlükdə, mədəniyyətə və mədəni dəyərlərimizin təbliğinə böyük önəm verib, bu barədə dəyərli fikirlər söyləyib. Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əsasını qoyduğu ölkəmizin hərtərəfli inkişaf strategiyası Onun siyasi kursunun ən layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev Azərbaycanda kitabxana işinin inkişafına böyük diqqət və qayğı göstərir, dövrün tələblərinə uyğun islahatlar aparılır. Bu, həm də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mədəni quruculuq siyasətinin uğurla davam etdirilməsinin göstəricisidir. Bunun bariz nümunəsidir ki, bu gün Daşkəsən Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində əsaslı təmir işləri aparılıb. Kitab fondu yeni-yeni nəşrlərlə mütəmadi zənginləşdirilir, rayonumuzda kitaba olan marağı daha da artırmaq üçün rayonun kənd və qəsəbələrində geniş təbliğat işləri davam etdirilir”.

Tədbirdə Daşkəsən Şəhər 2 saylı Körpələr Evi-Uşaq Bağçasının fidanlarının və məktəblilərin bir-birindən rəngarəng kompozisiyaları, bədii qiraət nümunələri maraqla izlənilib.

Rəngarəng mahnı və rəqslərlə davam etdirilən kitab bayramı şən ovqatla sona çatıb.

**R.HÜSEYNOVA**